AMEA Filologiya və sənətşünaslıq, 2026, № 1 ISSN 2663-4368
Səhifə: 59-64 E-ISSN 2709-2699
https://doi.org/10.59849/2663-4368.2026.1.59

# Azərbaycan və qazax nəsrində tarixi roman janrının inkişafı

**Ağahüseyn Şükürov**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Rəyasət Heyəti Aparatının
İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri
E-mail: agahuseyn.shukurov@mail.ru
ORCID iD: https://orcid.org/0009-0008-7995-2106

***Xülasə.*** Məqalədə Azərbaycan və qazax ədəbiyyatında tarixi roman janrının özünəməxsus inkişaf xüsusiyyətləri araşdırılır. Hər iki xalqın ədəbiyyatında istər keçmiş sovet dövründə, istərsə də müstəqillik illərində yaranan bədii nümunələrə istinad edilir, paralellər aparılır. Bir sıra yazıçıların əsərləri mövzu üzrə araşdırılır, müvafiq nəticə çıxarılır. Tarixi şəxsiyyətlərin bədii portretlərinin yaradılmasında özünəməxsus çalarlar qeyd edilir, ideya-bədii keyfiyyət nəzərdən keçirilir.
***Açar sözlər:*** *Azərbaycan, qazax, nəsr, tarixi roman, İsa Muğanna, Abay Kunanbayev, Muxtar Auezov*

**Məqalə tarixçəsi:** göndərilib – 23.04.2026; qəbul edilib – 13.05.2026

# The development of the historical novel genre in Azerbaijani and Kazakh prose

**Aghahuseyn Shukurov**

***Abstract.*** The article examines the distinctive features of the development of the historical novel genre in Azerbaijani and Kazakh literature. It refers to literary works produced in both literatures during the Soviet period as well as the years of independence, drawing relevant parallels between them. The works of several prominent writers are analyzed within the framework of the study, and corresponding conclusions are presented. Particular attention is paid to the specific approaches employed in creating artistic portrayals of historical figures, while the ideological and aesthetic qualities of these works are also explored.
***Keywords:*** *Azerbaijan, Kazakhstan, prose, historical novel, Isa Muganna, Abai Kunanbayev, Mukhtar Auezov*

**Article history:** received – 23.04.2026; accepted – 13.05.2026

## Giriş / *Introduction*

Tarixən totalitar ideologiyanın basqısı altında yaşayan milli və etnik qruplar öz mənəvi kimliyini təmin etmək üçün bədii ədəbiyyatda tarixi mövzuya müraciət etmişlər. Tarix hər bir xalqın milli kimliyinin ən etibarlı saxlancıdır. O həmçinin milli-mənəvi düşüncənin obyektiv meyarıdır. Xüsusilə ziddiyyətlərlə dolu XX əsrin mürəkkəb və zəngin həyatında hər bir xalqın tarixi onu mühafizə edib, yazıçılar, alimlər mədəniyyət xadimləri öz istək və arzularını, mübhəm duyğularını açıq deyə bilməyəndə ona tarixi yanaşma adı altında müraciət ediblər. Çünki 70 illik sovet dönəmində əvvəlcə proletariat diktaturası, sonra isə ədəbiyyat və mədəniyyətə ideoloji rəhbərlik metodu olan sosializm realizmi nəzəriyyəsi milli ədəbiyyatları yeni mədəniyyət və cəmiyyət üçün yararsız elan etmişdi. Xüsusilə türk-islam xalqlarının klassik irsi, minacat və nətlə başlayan əsərlər pantürkist, pa-

nislamist, dini-feodal və burjua sinfinin ədəbiyyatı elan olunmuşdu.

37-ci ilin qanlı repressiyaları, müharibə və müharibədən sonra bütün janrlarda konfliktsiz əsərlər meydana gəldi. Bədnam “konfliktsizlik” nəzəriyyəsi sayəsində zəif təsvirli, xaraktersiz poemalar yarandı. Bu, XX əsrin 50-ci illər ədəbi prosesi üçün səciyyəvi idi. 50-ci illərin ikinci yarısından şəxsiyyətə pərəstiş və diktatura dönəmindən sonra qismən də olsa, ədəbiyyatda yeniliyə, tarixi mövzulara maraq yarandı. Məmməd Səid Ordubadinin “Qılınc və qələm”, “Dumanlı Təbriz”, “Döyüşən şəhər”, “Gizli Bakı”, Yusif Vəzir Çəmənzəminlinin “Qan içində” (“İki od arasında”), “Qızlar bulağı”, Anatoli Zöhrabbəyovun “Odlu diyar”, Əyyub Abbasovun “Zəngəzur” tarixi romanları, Mirzə İbrahimovun “Böyük dayaq”, İlyas Əfəndiyevin “Söyüdlü arx”, Mehdi Hüseynin “Yeraltı çaylar dənizə axır”, İsa Hüseynovun “Yanar ürək”, Sabir Əhmədovun “Dünyanın arşını” kimi yeni nəsr nümunələri yarandı. İsa Muğannanın “Məhşər”, Əzizə Cəfərzadənin “Bakı-1501”, Fərman Kərimzadənin “Qarlı aşırım”, “Xudafərin körpüsü”, Əlisa Nicatın “Qızılbaşlar” və s. əsərlər meydana çıxdı.

Qazax ədəbiyyatının şedevri, o zaman Sovet İttifaqında ən böyük təltif olan Lenin mükafatı almış “Abay”, “Abayın yolu” romanları tarixə düşdü. Həm Azərbaycan, həm də qazax ədəbiyyatında, eləcə də digər türk ədəbiyyatlarında milli ruhlu yazıçılar müasirliyin tələbkar suallarına cavab tapmaq üçün Vətən tarixinə üz tutdular.

Əvvəla onu deyək ki, tarixi roman yazmaq hər yazıçının işi deyil. Tarixi roman yazan ədib həm də tədqiqatçı olmalı, tarixi fakt və sənədin, tarixi hadisə və olayın arxasında dayanan sirri açmağı bacarmalıdır. Ulu öndər Heydər Əliyev deyirdi ki, hər yazıçını tarixə buraxmaq olmaz.

Müxtəlif adlarla – özbək, qazax, türkmən, tatar, başqırd, azərbaycanlı, qaqauz və s. adlarla yaşamağa məcbur edilsə də türkün tarixi qədim və zəngindir. Öz tarixlərinin qədimliyi və zənginliyindən dolayısı iftixar hissi eyni köklü, eyni mənşəli, qanbir, dinbir, genbir Azərbaycan və qazax ədəbiyyatları öz müştərək tarixlərinə güvənərək inkişaf yoluna qədəm qoydu.

İsa Muğanna “Məhşər” romanında hürufi şair və filosof İmadəddin Nəsiminin, Muxtar Auezov “Abay” romanında maarifçi şair Abay Kunanbayevin parlaq obrazlarını yaratmışlar. Məmməd Səid Ordubadinin “Qılınc və qələm” romanında dahi şair Nizami Gəncəvinin, Əzizə Cəfərzadənin “Bakı-1501”, Fərman Kərimzadənin “Xudafərin körpüsü”, Əlisa Nicatın “Qızılbaşlar” romanlarında böyük sərkərdə və dövlət xadimi, şah və şair Şah İsmayıl Xətainin möhtəşəm obrazları yaradılmışdır.

Xalqın tarixində, milli yaddaşda heykəlləşən şairlərin – Nizaminin, Nəsiminin, Seyid Əzimin, Abayın obrazlarını yaratmaq çox çətindir. Necə edəsən ki, xalq öz sevimli şairinin bədii surətini daha artıq sevsin? Bunun üçün təkcə tarixi bilmək, fakt və hadisələri təsvir etmək kifayət deyil. Buna nail olmaq üçün həm də bədii yaradıcılığın sirlərini, yaradıcılıq prosesini, sənətkar psixologiyasını bilmək, qlobal tərzdə demək olarsa, tarixin ruhunu duymaq lazımdır.

Tarixi roman tarixin bədii obrazını yaradır, panoram səhifələr, möhtəşəm hadisələr və əlbəttə, tarixi şəxsiyyətlərin parlaq obrazlarını yenidən oxucuya çatdırmaq missiyasını yerinə yetirir. Azərbaycan yazıçısı İsa Muğannanın (Hüseynov) “Məhşər” romanında şair Nəsimi, Muxtar Auezovun “Abay” romanında Abay belə tarixi şəxsiyyətlər, həm də şairlərdir. Onların mənəvi təkamülü mürəkkəb tarixi hadisələr məcrasında baş verir. Eyni mülahizələri özbək yazıçısı Aybəkin “Nəvai” romanı barəsində də demək olar.

Tarixi şəxsiyyətin gücü onun xalqla və tarixlə bağlılığındadır. Xalq ən etibarlı, ən böyük dayaqdır. Hər bir xalqın tarixini onun böyük şəxsiyyətləri yaradır. Böyük şəxsiyyətlər tarixin memarlarıdır. Tarixi şəxsiyyətlər, sovet dövrünün mənfi qəhrəmanları, şahlar, bəylər, xanlar daha çox milli xarakterlərdir: İsmayıl Şıxlının “Dəli Kür” romanındakı Cahandar ağa, Fərman Kərimzadənin “Qarlı aşırım” romanında Kərbəlayi İsmayıl, Muxtar Auezovun “Abay” romanındakı Kunanbay qüvvətli milli xarakterlərdir. Muxtar Auezov Kunanbayı təkcə bir aul rəhbəri, tayfa başçısı kimi yox, qazax xalqının milli xarakterinə xas olan bir obraz kimi yaratmışdır.

Tarixi romanda əsas yaradıcılıq qayəsi tarixi şəraiti doğru təsvir etməkdir. Tarixi şəxsiyyət bu mühitdən boy atmasa, o, inandırıcı ola bilməz. Lakin qəribədir ki, sovet dövrünün yazıçıları tarixə, mühitə ideoloji fenomen kimi baxır-

dılar. Mühiti təhlil etmirdilər, ona sosializmin dəyərləri və gözü ilə qiymət verirdilər. Azərbaycan və qazax xalqlarının tarixi birliyindən bəhs edərkən hər iki qardaş xalqın əməllərinin, istək və arzularının bitib tükəndiyi paralel mühitlər problemi ortaya gəlirdi.

Sənət, ədəbiyyat, bədii sərvətlər əslində tarixin ayrılmaz hissəsidir. Biz çox zaman tarixi bədii əsərlər vasitəsilə dərk edirik.

Görkəmli qazax tənqidçisi Murat Auezov (1943-2024) mif və tarixi roman problemindən bəhs edərək yazır: “Son onilliyin tarixi janrlı qazax ədəbiyyatı zamanla dərinliklərə qərq olmuş hadisələrə nüfuz edərək, bu gün özünün çox məhdud mahiyyətini ortaya qoyur, ecazkar çağırışları ilə zamanlar arasında əlaqə yaradır” [Ауэзов: 1972, s.123].

Tarixi romanda tarix və müasirlik paralel yaşayır, yazıçı tarixə müasirlik gözü ilə baxır, tarixdə müasirliyin dərdlərinə çarə axtarır.

Tarix hər bir xalqın əvəzolunmaz milli sərvətidir. Xüsusən müasir türk xalqları üçün bu sərvət daha qiymətlidir. Çünki türk milləti indi – XXI əsrin əvvəllərində özünə qayıdır, yaddaşa enir, öz kökünü axtarır, kimliyini daha aydın dərk edir. Bu baxımdan Azərbaycan və qazax ədəbiyyatları qarşısında böyük yaradıcılıq vəzifələri dayanır.

Qazaxıstanda yazılı ədəbiyyatın təməlini qoymuş dahi şəxsiyyətlərdən biri isə məhz Azərbaycanda hər kəsin tanıyıb sevdiyi Abaydır.

Təsadüfi deyildir ki, xanlıq dövrünün ən məşhur şair və yazıçıları həm də döyüşçü kimi ad-san qazanmışdılar. Bu, qazax xalqının taleyində dərin iz salmış milli azadlıq hərəkatından doğan ülvi bir hiss olduğuna görə, onların yaratdıqları əsərlər də xalqda döyüşkən ruh aşılayırdı. Bu, yenilməz qəhrəmanlıq dastanları, mahnı və şeirlərdir. Əgər XV-XVIII əsrlərin jırauları özlərini xalqın vəkilləri kimi hiss edirdilərsə, XIX əsrin batırları özlərini hakimlərdən qoruyan xalqın müdafiəçiləri qismində çıxış edirdilər. Belə ki, Məhəmbətin sözü öz təsiri etibarilə qılınc kimi kəsərli və iti idi. Qazax hakimləri onun poeziyasının ölümcül təsirindən qorxuya düşmüşdülər. XIX əsrin ikinci yarısı Qazaxıstanda əhəmiyyətli tarixi hadisələr, iqtisadi, sosial, siyasi və mədəni münasibətlərdə dəyişikliklər və təzahürlərlə səciyyələnir. Əgər keçmişdə qazax cəmiyyəti daxili feodal çəkişmələri, yadelli işğalçılardan qaçaraq uzaqlara köç edən, çox əsrlər boyu sosial-iqtisadi gerilik və müəyyən dərəcədə təcrid vəziyyətində idilərsə, Qazaxıstanın Rusiyaya birləşdirilməsi ilə vəziyyət köklü surətdə dəyişildi. Rus çarizminin müstəmləkə siyasətinə baxmayaraq, Qazaxıstanın Rusiyaya birləşdirilməsi həmçinin ruslarla mədəni əlaqələrin genişlənməsinə də şərait yaratdı. Qeyd etmək yerinə düşür ki, rus-qazax ədəbi əlaqələri hələ XIX əsrin birinci yarısından genişlənməyə başlamışdı. A.S.Puşkin 1833-cü ildə qazax çölündə, Orenburq və Uralskda olmuşdu. O, qazaxların Puqaçov üsyanında iştirakı ilə maraqlanmışdı. “Kozı-Korpeş və Bayan-Sulu” qazax liro-epik poemasının süjeti həmin üsyandan alınmışdır. Qazaxların həyat və məişəti ilə digər tərəqqipərvər düşüncəli rus yazıçıları da maraqlanmışlar. 1833-41-ci illərdə Orenburq və Uralskda işləmiş Vladimir Dal (1801-1872) “Bikey və Maulyana” realist povestini, Vasili Uşakov (1789-1838) “Qırğız-Qaysak” povestini qələmə almışlar.

XIX əsrin ikinci yarısında çarizm tərəfindən qazax torpaqlarının siyasi sürgün yerinə çevrilməsi ilə əlaqədar buraya ayrı-ayrı respublikalardan, ölkə və şəhərlərdən alim və yazıçılar sürgün edilirdilər. Burada sürgün həyatı keçirmiş petraşevçi şair Sergey Durov, yazıçı Fyodor Dostoyevski qazax maarifçisi Çokan Vəlixanovun dostları idilər. İnqilabçı demokrat şair Taras Şevçenko Qazaxıstana sürgün edilmiş, o, burada 10 il sürgündə olmuşdur. Şair qazax xalqının məşəqqətli vəziyyətini və ağır yaşayışını görmüş, “Satrap və Dərviş”, “Balta Tanrının qapısı arxasında idi”, “Mənim doğma fikirlərim” əsərlərində qazax xalqına həmrəyliyini və hörmətini ifadə etmişdir.

Polşa inqilabçıları – şair Qustav Zelinski (1809-1881), rəssam Bronislav Zalesski (1819-1880) Qazaxıstanda sürgündə olmuşlar. Zelinski “Qazax” və “Çöl” poemalarını qələmə almışdır. Zalesski “Qazax çöllərinin həyatı” şəkil albomlarını tərtib etmişdir. Böyük qazax şairi Abay Kunanbayevin dostluq münasibəti qurduğu 60-cı illərin inqilabçı xalqçıları hərəkatının iştirakçıları olan Yevgeni Mixaelis (1841-1913) və Nifont Dolqopolov (1857-1922) da burada sürgün həyatı yaşamışdılar.

Böyük qazax alimi Çokan Vəlixanovun (1835-1865) da adı bu gün qürur hissi ilə xatırlanır. Cəmi 30 illik bir ömür sürsə də onun çoxsahəli yaradıcılığı qazax ədəbiyyatı səhifələrində ölçüyəgəlməzdir. Bəzi Avropa və Şərq dillərinə mükəmməl yiyələnmiş Çokan Vəlixanov bir sıra elmi-tarixi məlumatlar, ədəbi abidələr, xalq yaradıcılığı nümunələri toplamışdır. O, qırğız xalqının yaradıcılığına da nəzər salmış, "Manas" ensiklopedik poemasını qələmə almışdır. Eknsiklopedik bilk sahibi olan alim tarix və coğrafiyaya da dair bir sıra elmi tədqiqat əsərlərinin müəllifidir [Касымбаев: 2012].

XIX əsr qazax ictimai-siyasi proseslərini özündə əks etdirən Abay Kunanbayevin yaradıcılığı mənsub olduğu xalqın ölməz bədii irsidir. Kunanbayev 200-ə yaxın şeir, 3 poema, 45 nəsr əsərlərinin müəllifidir. O, "Dəvə qovan" adlı ilk şeirini 10 yaşında yazıb. Abayın yaradıcılıq ideallarının əsasında maarifçi görüşləri dayanırdı. Tənqidi realizm cərəyanının böyük nümayəndəsi kimi şair şeirlərində azğın və tamahkar bəylərin obrazını yaradarkən onların xarakterinin bütün cəhətlərini açmağa təşəbbüs göstərir. "Malqaranı qoruyub firavan gün sürür bəy", "Dövlətinin bir dərdi var...", " Xoş söz eşitmədim mən" və s. şeirlərində bu halın poetik ifadə tərzinə rast gəlirik.

Əsl adı İbrahim olan Abay Kunanbayev 1845-ci il iyulun 29-da Semey vilayətində anadan olmuşdur. Anasının ona verdiyi "diqqətli, ehtiyatlı" mənası verən "Abay" ləqəbi ömrü boyu ədibin adı kimi işlənmiş və o, bütün dünyada bu adla tanınmışdır. İlk təhsilini mollaxanada almış, sonra isə rus məktəbində davam etdirmiş böyük ədib qazax ədəbiyyatının banilərindən biridir. Həmçinin rus və qazax dillərinə tərcümələri ilə yadda qalan Abay yaradıcılığını müxtəlif qaynaqlara əsaslanaraq formalaşdırmışdır: Onun yaradıcılığında Azərbaycan şairi Nizaminin, həmçinin rus və Avropa, eləcə də qazax şifahi xalq ədəbiyyatının təsiri duyulur. İki oğlunu itirməsi həyatında sağalmaz yaraya çevrilmiş Abay "Gəlinim Məhişə başsağlığı" şeirində Allahın ona əlacsız dərd verdiyini söyləyir, təsəlli dolu misralarda gəlinini bu kədərə dözməyə çağırır. "İskəndər" poeması tarixi şəxsiyyət olan Makedoniyalı İskəndərin adı ilə bağlansa da, sərkərdənin həyatının müəyyən fraqmentlərini özündə əks etdirsə də, humanizm və insanpərvərliyin təbliği, müharibə dəhşətləri, istila və qarətə etiraz əsərin əsas ana xəttini təşkil edir.

"Maqsud" poeması ibrətamiz və əxlaqi-didaktiv görüşlər timsalında ağıl, tale, aqibət və nəfs problemlərinə şairin orijinal baxışlarını özündə əks etdirən maraqlı əsər kimi səciyyələnir. Abay insan idrakını şəxsiyyət və cəmiyyətin əsası hesab edir, ağılsızlığın ağıla üstünlüyünü cəmiyyət üçün faciə hesab edir. Əsərdə 3 əsas prinsipin – qüdrət, dövlət və məhəbbətin hansının cəmiyyət üçün vacibliyi məsələsinə diqqət yetirilir. Konkret düşüncənin saxlanılması, ağlın təntənəsinin vacibliyi, insanın xoşbəxtliyinin əsasında ağılın dayanması məsələsi önə çəkilir.

Abay Kunanbayev yaradıcılığı qazax şifahi xalq ədəbiyyatı, xüsusən onun lirik nümunələri ilə sıx bağlıdır. O, qazax poeziyasını müsəddəs, müsəlləs, məsnəvi kimi yeni formalarla zənginləşdirərək, ona yeni ictimai məzmun gətirmişdir. Təmiz, saf məhəbbəti tərənnüm edərək, ilin fəsillərinə həsr olunan şeirləri ilə qazax poeziyasının gözəl nümunələrinin yaradılması onun qələminə məxsusdur. Müasirləri "Əqliyyə" ("Qara söz") əsərini onun yaradıcılığının zirvəsi hesab edirlər. "Əqliyyə" əsərində rus və tatar xalqları ilə qazax xalqı müqayisə olunur və yazıçı öz xalqının vəziyyətinə acıyır.

Akademik İsa Həbibbəyli "525-ci qəzet"də nəşr olunan məqaləsində Abay Kunanbayevin bütün yaradıcılıq məziyyətlərini ətraflı şəkildə xarakterizə etmiş, yazıçı-mütəfəkkirin dəst-xəttindəki özünü bütün parlaqlığı ilə göstərən qazax xalqının milli-mənəvi dəyərlərinin əks etdirilməsinin Azərbaycan ədəbiyyatı ilə nə qədər səsləşdiyini, harmoniya təşkil etdiyini səciyyələndirir: "Qazax ədəbiyyatının görkəmli klassiki Abay Kunanbayevin şeirləri Azərbaycan dilində orijinala çox yaxın bir səviyyədə səslənmişdir. ...Abayın «Əqliyyə» romanındakı hadisələr və ideyalar Azərbaycan maarifçi realizminin görkəmli nümayəndələri olan Marağalı Zeynalabdinin və Mirzə Əbdürrəhim Talıbovun əsərlərindəki motivlərlə oxşardır. Bu, mahiyyət etibarilə xalqlarımızın arasındakı tale ortaqlığının, doğmalıq və həmrəyliyinin bariz ifadəsidir" Касымбаев [Həbibbəyli: 2020].

XX əsrdə qazaxların tərəqqipərvər demokratik mədəniyyəti və ədəbiyyatının inkişafı hamar olmamış, hakim sinfin feodal-bəy, irticaçı-

müsəlman ideologiyası ilə çətin mübarizə şəraitində keçmişdir. Bolşevizmin ateizm ideologiyası qazax akınlarının bir hissəsində çaşqınlıq və qorxu hissi yaratmış, buna görə onlar feodal-patriarxal dövrün təməllərini ideallaşdıraraq keçmişə müraciət etmişlər. Bütün köhnələrin sarsıdılmış, gələcəyin isə müəyyən olunmadığı şəraitdə onlar dərindən ümidsizliyə qapanmışlar. Onlar yeni meydana çıxmış bolşevizm münasibətlərinin yeni təzahür və hadisələrinin mahiyyətini anlamağı istəməyərək, bu tarixi mərhələni "qəm-qüssə dövrü" ("zar zaman") adlandırmışlar. Dövrün səciyyəvi nümayəndələri Dulat Babatayev (1802-1874), Şortanbay Kanayev (1818-1881) olan "qəm-qüssə dövrü" mürtəce, mühafizəkar ədəbi cərəyanı məhz belə meydana gəldi. Onların yaradıcılığında yer almış bəzi əsərlərdə öz dövrünün sosial və ictimai həyatındakı "neqativ halların" sərt tənqid edilməsinə, "bəylərin", "riyakar ruhanilərin" "rəzilliyi", "xəsisliyi", "qeyri-insani hərəkətlərinin ifşa olunmasına" baxmayaraq, onlar feodal-patriarxal keçmişin müdafiəçiləri və daşıyıcıları idilər.

Görkəmli ədəbiyyatşünas Mixail Baxtin (1895-1975) yazırdı: "Roman nəsrin bütün janrları içərisində yeganə janrdır ki, getdikcə inkişaf edir, təkmilləşir, zənginləşir. Zamanla, əsrlə ən çox ayaqlaşan janr da romandır" [Бахтин: 1970, s.95-122]. Azərbaycan romanının yaşı minillik poeziya ilə, hətta dramaturgiya ilə müqayisədə o qədər də çox deyildir. Amma roman janrı istər bizim, istərsə də qazax ədəbiyyatının əsas janrlarından birinə çevrilmişdir. Görkəmli tənqidçi Yaşar Qarayev yazırdı: "Roman, hər şeydən əvvəl, böyük epik lövhələr janrıdır, dövrü, epoxanı təsvir etmək üçün ən əhatəli və imkanlı formadır. Oçerk, hekayə, yaxud povest həyatın nisbətən kiçik bir parçasını təsvir edir, roman isə ən böyük parçasıdır. O, həyatı və cəmiyyət tarixini vəhdət və bütövlükdə mənalandıra bilir. Hər şeyi və ən geniş səpkidə təsvir etmək hüququ hamıdan çox romana məxsusdur" [Hüseynov: 1980].

Muxtar Auezovun "Qazax xalqının böyük şairi Abay Kunanbayev" məqaləsində yazırdı: "Roman tarixidir, lakin yaradıcı şəxsiyyət haqqında... Tarixi roman kimi dövrü əks etdirir, xalqdan bəhs edir. Amma xalq həyatının bu fiqur vasitəsilə əks olunmasının özünəməxsusluğu, böyük orijinallığı var." [Auezov: 1954].

Auezovun romanında psixologizm əsas obrazların, ictimai-tarixi şəraitin insan xarakterlərinin açılışında ən mühüm vasitələrdən biridir. Tədqiqatçılar romanın dastan kimi qiymətləndirilməsinin mümkünlüyünü əsərin kompozisiyasında görürdülər. Eyni zamanda, Konstantin Fedin Auezovun romanını "bioqrafik romanı tarixi romana yüksəltmək istəyi" kimi səciyyələndirmişdir. Vladimir Piskunov, Auezovun "milli epik roman yazmağa ehtiyac və güc" [Пискунов: 1976] hiss etdiyini qeyd edərək, yazıçının milli bədii şüurun iki xüsusiyyətinə - epikliyə və xalqın mənəvi həyatında sənətin xüsusi roluna müraciət etdiyinə inanırdı. Əgər epik romanın tədqiqinin zirvəsi 1970-ci illərə təsadüf edirdisə, 1980-1990-cı illərdə "epik roman" termini ədəbiyyat elminin lüğətindən tədricən silinməyə başladı.

"Muxtar Auezovun «Abay yolu» qazax xalqının milli oyanış və dirçəlişinin mükəmməl epopeyasıdır. Təsadüfi deyildir ki, dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatov «Abay yolu» epopeyasını «türk xalqlarının, ortaq estetik və sosial ensiklopediyası» adlandırmışdır. Qazax xalqının taleyində oynadığı mühüm rola, dərin ictimai məzmununa və yüksək sənətkarlıq xüsusiyyətlərinə görə Muxtar Auezovun «Abay yolu» epopeyasını görkəmli rus yazıçısı Mixail Şoloxovun «Sakit Don» trilogiyası ilə müqayisə etmək olar. Obrazlı şəkildə belə demək olar ki, Muxtar Auezovun «Abay yolu» epopeyası qazax ədəbiyyatının «Sakit Don»udur." [Həbibbəyli: 2020].

Beləliklə, tam qətiyyətlə deyə bilərik ki, Muxtar Auezov "Abay" romanı vasitəsilə qazax xalqının tarixini, onun etnopsixoloji özünəməxsusluğunu, milli mentalitet, eləcə də tarixi şəxsiyyət amilini bütün mümkün cizgiləri ilə bədii boyalarla təsvir edərək qarşıya qoyduğu məqsədinə çata bilmişdir. Abayın yolu sonradan əksər qazax yaradıcı nəsillərinin davam etdirdiyi ənənələrlə birlikdə doğru istiqamət kimi sözün həqiqi mənasında xalqın yoluna çevrilmişdir. Ondan sonrakı tarixi dövrün məlum məcraya yönələn qanunauyğun gedişatı və müasir dövrün reallıqları bu mülahizəni əminliklə söyləməyimizə gerçək əsas yaradır.

Beləliklə, qazax ədəbiyyatında tarixi roman janrının inkişafından danışarkən onun görkəmli nümayəndələri sırasında Muxtar Auezovun iki-

cildli "Abayın yolu" epopeyası ilə yanaşı, İlyas Esenberlinin "Sehirli qılınc", "Ümidsizlik" və "Xan Kere" romanlarını özündə birləşdirən "Köçərilər" trilogiyası, Bulat Candarbekovun "Saklar" toplusu, Abiş Keşilbayevin "Qalaktikalar – ümid bürcləri" romanı və başqa əsərlərin də özünəməxsus yeri vardır.

**Ədəbiyyat / *References***


1. Ауэзов М. (1972). *Времен связующая нить: Литературно-критические этюды*. Жазушы.
2. Касымбаев, Ж. К. (2012). *История Казахстана (XVIII в. – 1914 г.)*. Мектеп.
3. Həbibbəyli İ. (2020, 10 iyul). *Böyük qazax mütəfəkkiri Abay və Azərbaycan*. 525-ci qəzet.
4. Бахтин М. (1970). Эпос и роман: О методологии исследования романа. *Вопросы литературы*, (1), 95-122.
5. Hüseynov A. (1980). *Nəsr və zaman*. Yazıçı.
6. Auezov M. (1954). *Qazax xalqının böyük şairi Abay Kunanbayev*.
7. Пискунов В. (1976). *Советский роман-эпопея: Жанр и его эволюция*. Советский писатель.